AZƏRBAYCAN XƏBƏRLƏRİ

# Bakının azad olunmasından 108 il keçir

59 dəqiqə öncə




Qafqaz İslam Ordusu Bakıda. 1918

Bu gün, sentyabrın 15-də Bakının işğaldan azad olunmasından 108 il keçir.

1918-ci il sentyabrın 15-də **Nuru Paşa**nın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan Cümhuriyyətinin korpusu Bakını işğaldan azad edib. Həmin vaxt Bakıda "Sentrokaspi" hökuməti mövcud olub. Tarixçilər cəmi 45 gün sürən bu hakimiyyətin, əsasən, daşnak və menşeviklərdən ibarət olduğunu bildirirlər. Onlardan əvvəl isə bu şəhərə bir müddət bolşeviklərdən ibarət Bakı Soveti başçılıq edib. 1917-ci ildə Rusiyada baş verən inqilabdan sonra müstəmləkə altında olan xalqlar azadlıqlarına qovuşmağa başlamışdı.

Sentyabrın 15-də azad olmaqla Bakı Azərbaycan Cümhuriyyətinin paytaxtına çevrilib. Buna qədər 1918-ci il mayın 28-də elan edilən Cümhuriyyətin paytaxtı Gəncə idi. Azərbaycan Cümhuriyyəti Tbilisidə elan edilmiş, oradan da Gəncəyə köçürülmüşdü.

Azərbaycan Cümhuriyyəti 1918-ci il mayın 28-də qurulub. 1920-ci ildə Rusiya Azərbaycanı təkrar işğal etdiyindən cümhuriyyət devrilib. Azərbaycan müstəqilliyinə bir də 1991-ci il oktyabrın 18-də qovuşub. Arada Azərbaycan Sovet Sosialist Respublikası SSRİ tərkibində olub.

Müstəqil tarixçilər hesab edirlər ki, o vaxt Azərbaycan reallıqda işğal altında idi.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur